Härnösands kommun

# İbtidai/orta məktəbə xoş gəlmisiniz



**Dinləməyi üstün tutursunuz?**
Burada siz fəsillərə bölünmüş bütün broşüranı tapa bilərsiniz. İstədiyiniz hissəyə qulaq asın.



# İbtidai/orta məktəb - bu nədir?

Uşağınız altı yaşı tamam olan il məktəbəqədər sinfinə başlamalıdır. Məktəbəqədər sinfindən sonra uşaq 1-ci sinifə başlayır. Bir ildən sonra 2-ci sinfə keçir və sonra 9-cu sinfə qədər davam edir.

Dərs bitəndən sonra evdə tək qala bilməyən uşaqlar üçün, əksər insanların dediyi kimi, asudə vaxt mərkəzləri var. Asudə vaxt mərkəzləri valideynləri işləyən və ya oxuyan 6-13 yaş arası uşaqlar üçündür.

Uşaq məktəbə getmədikləri zamani və ya tətillərdə getmədikləri günlərin bir hissəsini asudə vaxt mərkəzlərində ola bilər. Uşaq axşamlar, gecələr, həftə sonları asudə vaxt mərkəzində vaxt keçirə bilməz. Valideynləri axşamlar, həftə sonları və ya gecələr işləyən və onlara baxacaq başqa kimsəsi olmayan uşaqlar üçün istisnalar var. Onlar üçün gecə uşaq bağçasi var. Gecə uşaq bağçasi haqqında ətraflı bu saytda oxuyun: harnosand.se/nattis

Bütün bunlar - məktəbə qədər sinif, 1-9-cu sinif və asudə vaxt mərkəzləri grundskolan (ibtidai və orta məktəb) adlanır.

İsveçdə məktəbə getməyin heç bir xərci yoxdur. Əgər uşağa asudə vaxt mərkəzində yer lazımdırsa, onun üçün bələdiyyə sizdən ödəniş alacaq. Nə qədər ödəməli olduğunuz gəlirinizin nə qədər olmasından asılıdır.

Uşaqların məktəbdə ehtiyac duyduğu kitablar, oxumaq üçün planşetlər və ya kompüterlər kimi material və ya avadanlıqları heç bir ödəniş etmədən icarəyə götürə bilərlər. Ancaq uşaqların icarəyə götürməsinə icazə verilən hər şeylə diqqətli olmaları vacibdir. Məsələn, 7-9-cu sinif şagirdlərinin borc almasına icazə verilən kompüter xarab olarsa və ya itərsə, valideyn olaraq siz ödəməlisiniz.

## Siz önəmlisiniz



Bir valideyn olaraq, uşağınızın məktəbdə yaxşı oxuması üçün sizin önəmli rolunuz var. Məktəb sizinlə əlaqə saxlamaq və uşağınızın təhsili haqqında sizinlə danışmaq istəyir. Bu, birlikdə məktəb vaxtını mümkün qədər yaxşı keçirə bilməniz üçün edilir. Sizin maraqlanmaniz, məktəbdən məlumat almanız, uşağınızın düzgün yatdığına, səhər yeməyi yediyinə və məktəbə düzgün əşyalar apardiğına nəzarət etməniz məktəb gününün yaxşı keçməsi üçün vacibdir.

## Məcburi təhsil

İsveçdə təhsil icbaridir. Bu o deməkdir ki, uşaqlar məktəbə getməlidir. Bir valideyn olaraq övladınızın məktəbə gəlməsinə cavabdehsiniz.

Əgər uşaq məktəbə gəlmirsə, bunun xüsusi səbəbi olmalıdır, məsələn, uşağın xəstə olması və ya ona məzuniyyət verilməsi.

## Tədris ili

Tədris ili həmişə yaydan sonra başlayır. Tədris payız tədris yarimilliyi və yaz tədris yarimilliyindən ibarətdir. Payız dövrü avqustda başlayır və dekabrda bitir. Yaz yarimilliyi yanvarda başlayır və iyunda bitir. Hər dərs ili üçün dəqiq tarixləri harnosand.se saytında Uşaqlar və təhsil bölməsində (Barn och utbildning) tapmaq olar.



# Məktəb seçimi

Qəyyum və valideyn olaraq övladınızın hansı məktəbə getməsini istədiyinizi bildirə bilərsiniz. Bələdiyyənin bütün məktəbləri arasında arzu etmək hüququnuz var, amma istədiyiniz məktəbdə yer olduğu və ya olmadiği bilinmir. Lakin, uşağınızın həmişə yaxin ərazidə olan məktəbdə yer almaq hüququ var.

Yaşadığınız yerin yaxınlığındakı məktəbdən başqa bələdiyyə məktəbini istərdinizmi? O zaman sorğunuzu birbaşa seçdiyiniz məktəbə təqdim etməlisiniz. Uşağınız məktəbə hazırlıq sinfinə başlayacaqsa, başqa məktəb üçün müraciət ən geci fevralın 1-ə qədər təqdim edilməlidir.

Härnösand bələdiyyəsində on bir dövlət məktəbi, bir şəxsi məktəb və t6kar və eşitmə zəifliyi olan şagirdlər üçün bir dövlət məktəbi var.

# Schoolity  öyrənmə platforması

Schoolity işçi heyəti, şagird və valideynlərin bir-biri ilə əlaqə saxlaması, şagirdlərin davamiyyət və cədvəlinə baxmaq üçün istifadə edilən veb-əsaslı öyrənmə platformasıdı.  Öyrənmə platforması şagird və məktəb işçilərinin gündəlik işini asanlaşdıracaq. Bu, həmçinin uşağınızın təhsilini izləməyinizi asanlaşdıracaq. Bu platforma, həm isveç, həm də ingilis dillərində mövcuddur və siz dili özünüz seçə bilərsiniz.

Schoolity-dən istifadə etmək üçün sizə daxil olmaq haqqında məlumatlar lazımdır. Bunu necə  əldə edəcəyiniz haqqında harnosand.se/schoolity saytından ətraflı məlumat ala bilərsiniz. Schoolity ilə bağlı köməyə ehtiyacınız varsa, Härnösand Bələdiyyəsinin Xidmət Mərkəzi ilə əlaqə saxlaya bilərsiniz.

# Qayıb və xəstəlik

Əgər uşağınız xəstə olduğu üçün məktəbə gələ bilmirsə, bu barədə məktəbə məlumat verməlisiniz. Siz bunu Schoolity-nin köməyi ilə edirsiniz. Uşağın məktəbdə olmadığı hər gün üçün bildiriliş/məlumat verməlisiniz.

Əgər övladınız məktəb gününün hansısa məqamında məktəbi tərk etməlidirsə, məsələn, həkimə və ya diş həkiminə getmək üçün siz bunu sinif müəlliminə və ya sinif rəhbərinə məlumat verməlisiniz.

# Məzuniyyət/tətil

Əgər uşağınıza məktəbdən məzuniyyət icazəsi lazımdırsa, bu haqda vaxtında müraciət etməlisiniz. Siz bunu harnosand.se saytında mövcud olan ərizə formasına yazırsınız. Əgər məktəb məzuniyyətin məktəb işinə çox, mənfi şəkildə təsir etdiyini düşünürsə, uşağınıza məzuniyyət icazəsi verilməyəcək.



Tələbə bir tədris ilində 10 gündən çox məzuniyyət ala bilməz. Bu o deməkdir ki, uzun səfərlər tətil günlərində planlaşdırılmalı və həyata keçirilməlidir.

# Davamiyyətin əsassiz pozulmasi /qayıb

Məktəbin dərs vaxti bütün məktəblilərin harada olduqlarını bilmək cavabdehliyi var. Əgər uşağınız dərsə gəlmirsə və siz uşağın xəstə və ya tətildə olunduğunu bildirməmisinizsə, sizə davamiyyətin əsassiz pozulmasi haqqinda bildiriş gələcək. Bu, uşağın icazəsiz məktəbdən qalması deməkdir.

Övladınız xəstədirsə və ya hər hansı başqa səbəbdən məktəbə gəlməyəcəksə, bu barədə xəbərdar etməyiniz çox vacibdir. Əgər uşağınızın məktəbə gəlməməsi barədə sizdən heç bir bildiriş gəlməzsə, müəllimlər sizi sizinlə əlaqə saxlaya bilənə qədər axtaracaq. Ilk növbədə telefon, e-poçt və ya SMS, növbəti addımda isə ev ziyarəti vasitəsilə. Əgər onlar hələ də uşağı tapa bilməyəcəklərsə və ya uşağın hansi səbəbdən məktəbə gəlmədiyini öyrənə bilməyəcəklərsə, polis və ya sosial xidmətlərlə əlaqə saxlamaq məcburiyyətində qala bilərlər.

Əgər uşağın çox qayib günləri olsa, məktəb sizinlə danişmaq üçün əlaqə saxlayacaq.

## Məktəb qanunu və tədris plani

Məktəb haqqinda qanun uşaqların, şagirdlərin və valideynlərin hansı hüquq və öhdəliklərə malik olduğunu bildirir. Qanunda məktəbə cavabdeh olan şəxsə, yəni müəssisənin müdirinə hansı tələblərin qoyulduğu da göstərilir. Uşağınız bələdiyyə məktəbində oxuduğu üçün cavabdeh Härnösand bələdiyyəsidir.

İsveç təhsil nazirliyi uşaqların məktəbdə nə öyrənməli və hansı sinifdə bilik əldə etməli olduğuna qərar verən dövlət orqanıdır. Onların verdiyi qərarlar haqqında tədris planinda oxuya bilərsiniz.

Tədris planina İsveçdəki bütün məktəblər riayət etməlidir. Məktəblər fəaliyyətlərini məhz bunun üzərində qurur və inkişaf etdirirlər.

## Qiymət və müəllim rəyi

1-5-ci siniflərdə şagird yaz yarimilliyində hər bir fənn üzrə qiymətlər alır. Qiymətləndirmə tələbənin qiymət üzrə bilik səviyyəsini keçib-keçmədiyini bildirir.

Şagirdlər ilk qiymətlərini payız yarimilliyinin sonunda 6-cı sinifdə alırlar. Daha sonra şagirdlər  9-cu sinfin yaz yarimilliyində yekun qiymət verilənə qədər hər yarimillik yeni qiymət alirlar. Məhz yekun qiymətlə şagird gimnaziya müraciət edir.

Qiymətləndirmə şkalası A-F-dən başlayır, burada A ən yüksək qiymətdir və F kafi deməkdir.

## Məktəbin sağlamliq və dəstək qrupu

TMəktəbə bağlı şagird sağlamlığı deyilən bir şey var. Bu, həm tibbi, psixoloji, psixososial və xüsusi təhsil səylərini əhatə edə bilər. Məktəb həkimləri, tibb bacıları, psixoloqlar və social məsləhətçilər şagirdlərin sağlamlığı ilə əlaqedar olaraq çalışırlar. Xüsusi pedaqoji bacarığı olan heyət də var.

Şagird səhiyyə qrupu, məsələn, sağlamlıqla bağlı söhbətlər və peyvəndlər vasitəsilə şagirdin özlərini yaxşı hiss etmələrini və sağlam olmalarını təmin etməyə töhfə verməlidirlər.

Şagird sağlamlığı sayəsində uşağınız İsveç uşaq peyvənd proqramına uyğun olaraq peyvənd etmək imkanı əldə edir. Bu, on bir xəstəlikdən qoruyan bir peyvənddir: rotavirus infeksiyası, difteriya, tetanus, göy öskürək, poliomielit, Haemophilus influenzae tip b səbəb olduğu infeksiyalar, pnevmokok, qızılca, parotit (qulaqdibi xəstəliyi), məxmərək və insan papillomavirusu (HPV) səbəb olduğu ağır xəstəlik.

# Məktəb fənnləri

İbtidai məktəbdə şagirdlər aşağıdakı fənləri öyrənirlər: İsveç dili, ikinci dil kimi isveç dili, ingilis dili, riyaziyyat, rəsm, musiqi, əl işi, ev bacariği, idman və sağlamlıq, sosial elmlər, din, tarix, coğrafiya, biologiya, fizika, kimya, texnik, şagirdin seçimi, şagirdin seçdiyi müasir dillər, məsələn: ispan, alman və ya ingilis və imkan olan hallarda ana dilinin tədrisi. Şagirdlər bütün fənləri hər zaman oxumurlar, lakin onlar hər yarimil və ildən dəyişir.



## İsveç dili ikinci dil kimi

İkinci dil kimi isveç dili, isveç dili fənni ilə bərabərləşdirilən xüsusi bir fənndir. İsveç dili deyil, başqa ana dili olan şagirdlərin ikinci dil kimi isveç dilində tədris hüququ ola bilər. İkinci dil kimi isveç dilinin tədrisi tələffüz, sözlərin düzülüşü və şagirdin bildiyi bütün dilləri ilə müqayisələr kimi specifik cəhətleri özündə cəmləyə bilər. Şagirdin ikinci dil kimi isveç dilində tədris almaq hüququna malik olub-olmaması və ona ehtiyacı olub-olmaması barədə məktəb qərar verir.



# Ana dilinin tədrisi və ana dilində tədrisə dəsdək

Uşağın dil, düşüncə və şəxsiyyətinin inkişafı üçün ana dilinin böyük rolu var. Yaxşı tədris olunmuş ana dili isveç, digər dillər və həmçinin digər fənnləri öyrənmək üçün yaxşı şərait yaradır.

Uşağınız öz ana dilində təhsil ala bilər. Əgər övladınızın ana dilində tədris olunmasını istəyirsinizsə, bunun üçün müraciət etməlisiniz. Siz bunu bələdiyyənin saytındakı elektron xidmət vasitəsilə edirsiniz. harnosand.se/modersmalsundervisning

# İdman və üzgüçülüyün tədrisi

Hərəkət etmək, yaxşı vərdişlərə sahib olmaq və mənalı asudə vaxt keçirmək uşağınızın özünü yaxşi hiss etməsi üçün vacibdir. Təhsil planina idman və bədən tərbiyyəsi fənni daxildir. Bu sizin uşağınıza idman, hərəkət və məşqlə bağlı pozitiv təcrübələr bəxş edəcək. Tədris planinda həmçinin qeyd olunur ki, uşağınız üzməyi öyrənməlidir.

Bütün uşaqlar idman və üzgüçülük dərslərində iştirak etməlidirlər. Valideyn olaraq övladinizin məktəbdə idman dərsi oldugu günlərdə idman, çimərlik paltarı və dəsmalinin olmasına nəzarət etməkdə mühüm rolunuz var. Uşaqlar idmandan əvvəl paltarlarını dəyişməli və sonra duş qəbul etməlidirlər.

Əgər uşağınız hər hansı səbəbdən idman dərsində iştirak edə bilmirsə, bu barədə müəllimə məlumat verməlisiniz.

# İnkişaf danışıgı və valideyn iclasi

Hər yarimillikdə məktəb siz valideynlərlə görüşmək istəyir. Hər yarim ildə bir dəfə uşagin inkişafi haqqinda iclas keçirilir. Onda siz, övladiniz bir müəllim və ya sinif rəhbəri görüşür və uşağınızın məktəbi haqqinda danışırsınız.

Hər tədris ilində bir dəfə, adətən payızın əvvəlində valideyn iclası keçirilir. Onda məktəb bütün valideynlərlə eyni sinifdə iclas keçirir  və onlara məktəb və gələn dərs ili haqqında danışir.

Əgər siz gəlib məktəbi ziyarət etmək istəyirsinizsə, buyurun. Ancaq bunu etməzdən əvvəl, övladınızın müəllimi ilə bu barədə razılaşmalı və gəldiyiniz zaman məktəb ofisində qeydiyyatdan keçməlisiniz.

# Qida

Uşağınıza məktəbdə nahar verilir. Nahara görə heç bir ödəniş tələb olunmur. Məktəblərin böyük əksəriyyətində seçim edə bilmək üçün bir neçə cür yemək, eləcə də müxtəlif tərəvəz növləri var. Tibbi səbəbdən xüsusi qidaya ehtiyyaci olan usaqlara (məsələn allergiyasi olan) sizin həkim arayişini təqdim edildiyiniz halda xüsusi qida verilir.

Əgər uşağınız vegetariandırsa, vegandırsa və ya dini səbəblərə görə xüsusi qidaya ehtiyacı varsa, bu barədə məktəbə məlumat verməlisiniz, lakin arayiş təqdim etməyinizə ehtiyac yoxdur. harnosand.se/specialkost.

# Məktəb avtobusu / nəqliyyati

Uşağınız məktəbdən uzaqda yaşayırsa, məktəbə gedən yol təhlükəlidirsə və ya uşağınızın hər hansı əlilliyi varsa, uşağın məktəb avtobusu hüququ ola bilər. Bu o deməkdir ki, uşaq evlə məktəb arasında pulsuz məktəb avtobusu /nəqliyyatına minə bilər.

Məktəb nəqliyyatı fərqli ola bilər. Ola bilər ki, övladınıza avtobus kartı verilir və adi avtobusa minir, lakin bu, həmçinin xüsusi sifarişli avtobuslar, mikroavtobuslar və ya taksilər də ola bilər. Ətraflı məlumat harnosand.se/skolskjuts saytında mövcuddur.

Əgər övladınıza məktəb avtobusu/nəqliyyatı verilibsə  və o, yaxşı işləmirsə, bu e-poçt ünvanına müraciət etməlisiniz: trafikenheten@harnosand.se

# Mobil telefonlar

Məktəbə qədər sinfindən, 6-ci sinfə qədər uşaqlara dərs vaxtı mobil telefondan istifadə etmək olmaz. Buna görə də məktəb uşaqların telefonlarını evdə qoymasını istəyir. Əgər onlar telefonu məktəbə gətirsələr, dərs gününün əvvəlində onu müəllimə verməli və dərs gününün sonunda onu geri ala bilərlər.

7-9-cu sinif şagirdlərinə dərslərdə mobil telefon olmaz.

# Bildiriş öhdəliyi

Əgər kimsə uşağa pis davranılmasından şübhələnirsə, bu barədə bələdiyyəyə məlumat verə bilər. Buna narahatlıq müraciəti deyilir. Məsələn, uşağın vurulması və ya uşağa lazım olan qayğı göstərilməyəcəyi ilə bağlı narahatlıq ola bilər.

Uşaq və gənclərlə işləyən hər bir peşə sahibi (işdə) hər hansı bir uşağa pis davranılmasından şübhələndiyi təqdirdə, qanuna əsasən narahatlığını bildirməyə borcludur.

# Asudə vaxt mərkəzi

Asudə vaxt mərkəzi həftə içi bu saatlarda açıqdır 06.30-18.30.

Uşaqların hər iki valideyni işlədiyi təqdirdə asudə vaxt mərkəzində bu saatlarda vaxt keçirmək hüququ vardır. Uşağınızın asudə vaxt mərkəzində hansı saatlarda vaxt keçirəcəyi haqqda əvvəlcədən məlumat verməlisiniz.

Tədris ilində asudə vaxt mərkəzinin dörd dəfə planlaşdırma günləri var. O zaman əvəzedici işçilər  işləyir və əgər övladınızın bu günlərdə də asudə vaxt mərkəzində vaxt keçirməsi lazımdırsa, bir çox məktəblər bir valideyn olaraq sizdən bu haqqda əlavə bildiriş vermənizi tələb edir.

Əgər artiq uşağınızın asudə vaxt mərkəzində vaxt keçirməyinə ehtiyac yoxdursa, bu haqqda ən azı 14 gün əvvəl məlumat verməlisiniz.

# Məktəbdə fotoşəkil çəkmək  və video lentə almaq

Məktəbdə çalışan işçilər iş üçün fotoşəkil çəkə və video lentə ala bilərlər. Bu, məsələn, şagirdlərin inkişafını sənədləşdirmək və tədrisi asanlaşdırmaq üçün edilir. Siz valideynlərə məktəbdə şəkil çəkdirmək və ya video lentə almaq olmaz.

Uşağınızın şəklinin bələdiyyənin internet saytında və sosial mediada dərc olunmasına razılıq verirsinizsə bu haqqda imzalamanız üçün sizə bir anket forması veriləcək. Bu şəxsi məlumatların, fotoşəkillərin və videoların dərci haqqında razılıq adlanır. Məktəbəqədər sinif – 9-cu sinif.

# Ərizə - anket və elektron-xidmətlər

Xüsusi qida

Ana dilinin tədrisi

Nəşr üçün razılıq/GDPR

# Məktəb üçün əlaqə məlumatları

Härnösands
kommun